Milli Büdcə Qrupu

# AYLIQ BÜLLETEN №4(4)

İyun 2007

# Mündəricat


1. **Büdcə prosesi və onun icrası**

- *Dövlət büdcəsinin icrası (yanvar-may 2007-ci il)*
- *Azərbaycan Dövlət Gömrük Komitəsi dövlət büdcəsinə daxilolmaları artırıb*
- *ARDNF rəhbəri: Azərbaycanın Dövlət Neft Fondu 2007-ci ildə büdcə profisiti gözləyir*
- *Azərbaycanın Dövlət Neft Fondu bu il 2006-cı il dövlət büdcəsinin profisitinin qalıqlarından vəsait gözləmir*
- *Dövlət Neft Fondunun Müşahidə Şurası 2007-ci il büdcəsinə dəyişikliklərin təsdiq üçün Azərbaycan prezidentinə təqdim olunmasını tövsiyə edib*
- *Azərbaycan Prezidenti Dövlət Neft Fondunun 2007-ci il büdcəsində dəyişikliklər edilməsi barədə fərman imzalayıb*
- *Azərbaycan Prezidenti Dövlət Neft Fondunun büdcəsinin icrası haqqında sərəncam imzalayıb*
- *Dövlət Sosial Müdafiə Fondu 2007-c il üçün proqnozları açıqlayıb*
- *Dövlət Sosial Müdafiəsi Fondu yanvar-may ayları üçün gəlirlərini açıqlayıb*

2. **Vergilər**

- *2008-ci ildə ABƏŞ-in vergi sistemi dəyişdiriləcək*
- *Nazir: "Azərbaycanın qeyri-neft sektoruna kapitalın cəlb edilməsi üçün yeni fiskal rejim yaratmaq lazımdır".*
- *ABŞ xəzinədarlığı vergi idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı yeni Dövlət Proqramının hazırlanmasında yardım göstərir*

3. **Büdcə xərcləmələri**

- *Azərbacyanın Sahibkarlığa Kömək Milli Fondu güzəştli kreditlərin verilməsi üçün büdcə ayırmasını tamamilə yerləşdirib*
- *Milli Bank Azərbaycan İpoteka Fonduna əlavə maliyyə almaq üçün hökumətə müraciət edib*
- *Azərbaycanın ÜTT-yə qəbulu ilə bağlı hazırlıq prosesi üçün dövlət büdcəsindən vəsaitlərin ayrılması razılaşdırılıb*
- *BVF dövlət xərclərinin genişlənməsində neft amilinin təsirinin artdığını qeyd edir*

4. **Maliyyə Nazirliyi**

- *Maliyyə Nazirliyi kapitallaşma tələblərinə cavab verməyən sığorta şirkətlərinin sayını açıqlayıb*
- *Azərbaycan Maliyyə Nazirliyi ölkənin sığorta şirkətlərində xarici kapitalın iştirakını liberallaşdırır*
- *Azərbaycanın Maliyyə Nazirliyi avroistiqrazların buraxılması üçün menecerin seçilməsi üzrə tenderin nəticələrini açıqlayıb*
- *Maliyyə Nazirliyinin avrobond üzrə tarifləri Azərbaycanın korporativ avro istiqrazları üçün baza olacaq*

5. **Büdcəyə nəzarət və şəffaflıq**

- *BMT-nin Dövlət Qulluğu mükafatı Neft Fonduna təqdim olundu*

6. **Büdcə qanunvericiliyi**

- *Milli Məclis Azərbaycanın filiz yataqlarının işlənməsinə dair sazişi təsdiq edəcək*
- *Parlament komissiyasının sədri: Azərbaycan hökuməti AzSSR dövründə Əmanət Bankına qoyulmuş vəsaitlərin indeksasiyası üçün intensiv işlər görür*

7. **Beynəlxalq əlaqələr**

- *Gürcüstanın Maliyyə Nazirliyi 31 may 2007-ci ilə Azərbaycana olan dövlət borcunu açıqlayıb*

## Büdcə prosesi və icrası

***Dövlət büdcəsinin icrası (yanvar-may 2007-ci il)***

2007-ci ilin yanvar-may aylarında dövlət büdcəsinə 2210.2 milyon manat və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 71.0 faiz çox vəsait daxil edilmişdir. Büdcə gəlirlərinin 75.3 faizi (1664.5 milyon manatı) Vergilər Nazirliyi, 13.2 faizi (292.0 milyon manatı) Dövlət Gömrük Komitəsi tərəfindən təmin edilmiş, qalan hissəsi isə (253.7 milyon manatı) digər mənbələrdən yığılmışdır. Vergilər Nazirliyi büdcə gəlirlərinin bu dövrə olan proqnozunu 104.3 faiz, Dövlət Gömrük Komitəsi isə 107.8 faiz yerinə yetirmişdir. Gəlirlərin 431.0 milyon manatı və ya 19.5 faizi əlavə dəyər vergisindən, 979.4 milyon manatı (44.3 faizi) hüquqi şəxslərin mənfəət(gəlir) vergisindən, 206.2 milyon manatı (9.3 faizi) fiziki şəxslərın gəlir vergisindən, 102.1 milyon manatı (4.6 faizi) aksiz vergisindən, 97.3 milyon manatı (4.4 faizi) isə xarici iqtisadi fəaliyyətlə bağlı vergilərdən daxil olmuşdur.

**2007-ci ilin yanvar-may aylarında dövlət büdcəsinin gəlirləri**

| | İcra, milyon manat | Xüsusi çəkisi, faizlə | | 2006-cı ilin eyni dövrünə nisbətən, faizlə |
|---|---|---|---|---|
| | | Yekunda | ÜDM-da | |
| ***Gəlirlər – cəmi*** | **2210,2** | **100,0** | **25,2** | **171,0** |
| *o cümlədən:* | | | | |
| Fiziki şəxslərin gəlir vergisi | 206,2 | 9,3 | 2,3 | 182,6 |
| Hüquqi şəxslərin mənfəət(gəlir) vergisi | 979,4 | 44,3 | 11,2 | 5,4d |
| Torpaq vergisi | 10,5 | 0,5 | 0,1 | 136,4 |
| Əmlak vergisi | 27,3 | 1,2 | 0,3 | 135,1 |
| Əlavə dəyər vergisi | 431,0 | 19,5 | 4,9 | 149,3 |
| Aksiz vergisi | 102,1 | 4,6 | 1,2 | 180,4 |
| Mədən vergisi | 41,7 | 1,9 | 0,5 | 115,8 |
| Xarici iqtisadi fəaliyyətlə bağlı vergilər | 97,3 | 4,4 | 1,1 | 99,7 |
| ondan idxal rüsumu | 56,7 | 2,6 | 0,6 | 107,6 |
| Sair vergilər | 24,1 | 1,2 | 0,3 | - |
| Digər gəlirlər | 290,6 | 13,1 | 3,3 | 134,4 |

Bu dövr ərzində büdcədən 1731.3 milyon manat və ya əvvəlki ildəkindən 154.8 faiz çox vəsait xərclənmiş və büdcənin icrasında 478.9 milyon manatlıq (ümumi daxili məhsulun 5.5 faizi qədər) profisit yaranmışdır. Büdcə xərclərinin 544.2 milyon manatı (31.4 faizi) iqtisadiyyata investisiya qoyuluşuna, 271.9 milyon manatı (15.7 faizi) əhalinin sosial müdafiəsi və sosial təminatına, 234.9 milyon manatı (13.6 faizi) isə təhsilin maliyyələşdirilməsinə sərf edilmişdir. Büdcə xərclərinin 35.7 faizini (617.3 milyon manatını) əhaliyə əmək haqqı, pensiya və müavinət ödəmələri təşkil etmişdir.

**2007-ci ilin yanvar-may aylarında dövlət büdcəsinin xərcləri**

| | İcra, milyon manat | Xüsusi çəkisi, faizlə | | 2006-cı ilin eyni dövrünə nisbətən, faizlə |
|---|---|---|---|---|
| | | Yekunda | ÜDM-da | |
| **Xərclər – cəmi** | **1731,3** | **100,0** | **19,8** | **154,8** |
| *o cümlədən:* | | | | |
| Ümumi Dövlət Xidmətləri | 167,7 | 9,7 | 1,9 | 109,0 |
| *ondan:* | | | | |
| beynəlxalq təşkilatlara üzvlük haqqı | 2,1 | 0,1 | 0,02 | 77,8 |
| Məhkəmə hakimiyyəti, hüquq - mühafizə və prokurorluq orqanları | 122,3 | 7,1 | 1,4 | 148,2 |
| Təhsil | 234,9 | 13,6 | 2,7 | 143,1 |
| Səhiyyə | 72,1 | 4,1 | 0,8 | 150,5 |
| Sosial müdafiə və sosial təminat | 271,9 | 15,7 | 3,1 | 2,2d |
| Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət | 30,9 | 1,8 | 0,4 | 149,3 |
| İqtisadiyyata | 544,2 | 31,4 | 6,2 | 171,6 |
| *ondan:* - mənzil və kommunal təsərrüfatı | 21,3 | 1,2 | 0,2 | 115,8 |
| - kənd təsərrüfatı, meşə təsərrüfatı balıqçılıq,ovçuluq və ətraf mühitin mühafizəsi | 50,5 | 2,9 | 0,5 | 134,3 |
| - sənaye, tikinti və faydalı qazıntılar | 448,7 | 25,9 | 5,1 | 2,1d |
| - nəqliyyat və rabitə | 13,7 | 0,8 | 0,2 | 50,0 |
| Sair xərclər | 287,3 | 16,6 | 3,3 | 136,8 |
| ***Profisit*** | **478,9** | - | **5,5** | - |

**Azərbaycan Dövlət Gömrük Komitəsi dövlət büdcəsinə daxilolmaları artırıb**

İlkin məlumatlara əsasən, yanvar-may ayları ərzində Azərbaycan Dövlət Gömrük Komitəsi (DGK) dövlət büdcəsinə proqnozlaşdırılmış 288,40 mln. manat əvəzinə 292,24 mln. manat ödəmə və vergi köçürüb. Bu barədə DGK-nın mətbuat xidmətindən məlumat verilib. Proqnoz 101,33 faiz yerinə yetirilib. 2006-cı ilin eyni dövrü ilə müqayisədə bu göstərici 86,28 mln. manat və ya 41,89 faiz çoxdur. 2006-cı ildə DGK-nın büdcə köçürmələri 505,4 mln. manat proqnoza qarşı əvvəlki illə müqayisədə 139,64 mln. manat artımla 515,81 mln. manat təşkil edib.

**ARDNF rəhbəri: Azərbaycanın Dövlət Neft Fondu 2007-ci ildə büdcə profisiti gözləyir**

2007-ci ildə Azərbaycan Dövlət Neft Fondunda büdcə düzəlişlərinə baxmayaraq, ili profisitlə başa vurmaq planlaşdırılır. Bunu ARDNF-in icraçı direktoru Şahmar Mövsümov söyləyib. 2006-cı ilin dekabrında ARDNF-in 2007-ci il üçün təsdiq olunmuş büdcəsinə əsasən, gəlirlər 1555,7 mln. manat,

xərclər 977,1 mln. manat müəyyənləşdirilib. Büdcə düzəlişlərindən sonra gəlirlər dəyişməz qalıb. Neft Fondunun əlavə xərcləri Bakı-Tiflis-Qars dəmir yolu xəttinin Gürcüstan hissəsinin tikintisinin maliyyələşdirilməsi hesabına yaranacaq. Yolun Marabda-Axalkalaki hissəsinin yenidən qurulmasına və Axalkalakidən Türkiyə sərhədinə yolun çəkilməsinə Dövlət Neft Fonduna 200 mln. dollar ayrılacaq. Bu il fonddan 50 mln. manat ayrılacaq. Bununla yanaşı, ARDNŞ-lə münasibətlərin tənzimlənməsi məqsədilə Azərbaycan prezidentinin sərancamına uyğun olaraq Fonddan Dövlət Neft Şirkətinin hesabına 88,5 mln. manat (102 mln. dollar) köçürüləcək. Hazırda ARDNF-in aktivləri 1,8 mlrd. manat təşkil edir, ilin sonuna isə onların 2 mlrd. manata qədər artacağı gözlənilir.

**Azərbaycanın Dövlət Neft Fondu bu il 2006-cı il dövlət büdcəsinin profisitinin qalıqlarından vəsait gözləmir**

Azərbaycanın Dövlət Neft Fondu (ARDNF) bu il ötən ilki dövlət büdcəsinin profisitinin qalıqlarından vəsait gözləmir. Bunu ARDNF-in icraçı direktour Şahmar Mövsümov deyib. Onun sözlərinə görə, sxem belədir: «2006-cı ilin dövlət büdcəsi haqqında» qanuna əsasən profisit aşkarlansa, bu ilin ümumi büdcəsi 12-yə bölünür və əldə olunmuş məbləğ profisitdən çıxılır. Yalnız qalıq ARDNF-ə köçürülür. 2007-ci ilin büdcəsi 6,5 mlrd. manat proqnozlaşdırılır. Müvafiq olaraq bu rəqəmi 12-yə böləndə 300-400 mln. manat alınır. Ötən ilki profisit isə daha az olub və 74 manat təşkil edib. Ona görə də neft fonduna heç nə köçürülməyəcək» - deyə ARDNF rəhbəri qeyd edib.

**Dövlət Neft Fondunun Müşahidə Şurası 2007-ci il büdcəsinə dəyişikliklərin təsdiq üçün Azərbaycan prezidentinə təqdim olunmasını tövsiyə edib**

Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) Müşahidə Şurasının növbəti iclasında Fondun 2007-ci il büdcəsinə dəyişikliklərin təsdiq olunmaq üçün Azərbaycan Respublikası prezidentinə təqdim olunması barədə qərar qəbul edib. Bu barədə məlumatı Dövlət Neft Fondundan veriblər. İclas zamanı Azərbaycan Respublikasının baş naziri, Dövlət Neft Fondunun Müşahidə Şurasının sədri Artur Rəsizadə Fondun 2006-cı ildə fəaliyyəti haqqında hesabatı, maliyyə fəaliyyətinin auditinin nəticələri, ARDNF-nin 2006-cı il büdcəsinin icrası, Fondun 2007-ci il büdcəsində dəyişiklikləri təqdim edib. Neft Fondunun icraçı direktoru Şahmar Mövsümovun təqdimatına uyğun olaraq Fondun uçot siyasətində və muhasibat uçotu qaydalarında dəyişikliklər qəbul edilib. Müşahidə Şurası həmçinin Fondun 2006-cı ildə fəaliyyəti haqqında illik hesabatı, maliyyə fəaliyyətinin auditinin nəticələri, ARDNF-nin 2006-cı il büdcəsinin icrası haqda məlumatların ölkə prezidentinə təqdim edilməsini məsləhət görüb.

**Azərbaycan prezidenti Dövlət Neft Fondunun 2007-ci il büdcəsində dəyişikliklər edilməsi barədə fərman imzalayıb**

İyunun 28-də Azərbaycan prezidenti İlham Əliyev 28 dekabr 2006-cı ildə dövlət başçısının fərmanı ilə təsdiq olunmuş Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) 2007-ci il büdcəsinə dəyişiklik və əlavələr edilməsi haqqında fərman imzalayıb. Bu barədə xəbəri rəsmi mətbuat yayıb. Dəyişikliklər Fondun xərclərinin 977066,9 min manatdan 1115566,9 min manata artması ilə bağlı olub. Dəyişikliklər Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi üçün Azərbaycanın Gürcüstana dövlət krediti qismində 50 mln. manat ayırması və həmçinin «Azəri-Çıraq-Günəşəli» yataqlarının işlənilməsi ilə əlaqədar Dövlət Neft Şirkətinə onun müqavilə üzrə payından 88,5 mln. manat ayrılması ilə bağlı olub.

**Azərbaycan prezidenti Dövlət Neft Fondunun büdcəsinin icrası haqqında sərəncam imzalayıb**

İyunun 28-də Azərbaycan prezidenti İlham Əliyev Dövlət Neft Fondunun (ARDNF) 2006-cı il büdcəsinin icrası haqqında sərəncam imzalayıb. Bu barədə xəbəri rəsmi mətbuat yayıb. Büdcənin icrası 985938,7 min manat gəlir və 981375,9 min manat xərclə təsdiqlənib. 2006-cı ildə Fondun gəlirləri nəzərdə tutulduğundan 15,4 faiz artıb, xərcləri isə 4,4 faiz azalıb. Fondun gəlirləri karbohidrogenlərin satışından 896258 min manat, ixrac və daxili neft qiymətlərinin fərqindən – 10972,7 min manat, bonuslardan (mükafatlar) 1797,7 min. manat, neft və qazın ərazidən ötürülməsindən 12716,3 min manat , akrhesabı ödənişlərdən 7570,9 min manat olub. Fondun aktivlərinin yerləşdirilməsindən

gəlirlər 55953,3 min manat olub. Fondun əsas xərcləri sırasında dövlət büdcəsinə transferlər 585 mln. Manat təşkil edib, Oğuz-Qəbələ-Bakı su kəmərinin tikilməsinə 82748,7 min manat, Bakı-Tiflis-Ceyhan əsas ixrac boru kəməri layihəsində ölkənin ilştirak payının maliyyələşdirilməsinə 75409,1 min manat, Azərbaycan İnvestisiya Şirkətinin nizamnamə kapitalının formalaşdırılmasına 90 mln. manat, qaçqın və məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına 110031,5 min manat, Samur-Abşeron suvarma kompleksinin yenidən qurulmasına 37 mln. manat sərf olunub. Fondun inzibati xərcləri 1186,6 min manat təşkil edib.

**Dövlət Sosial Müdafiə Fondu 2007-c il üçün proqnozları açıqlayıb**

Azərbaycanın Dövlət Sosial Müdafiə Fondu 2007-ci il üçün büdcə proqnozunu açıqlayıb. Bu barədə Fondun məlumatında göstərilib. Fondun proqnozuna görə, təsdiq olunmuş gəlirlər 920,19 mln. manat, düzəliş olunduqdan sonra 989,657 mln. manat təşkil edir. İcbari sosial sığorta üzrə təsdiq olunmuş ödənişlər 670,73 mln. manat, düzəliş – 709,697 mln. manat, Fondun cari gəlirləri 1,22 mln. manat təşkil edir. Dövlət büdcəsinə köçürmələr 248,24 mln. manat, düzəliş 278,74 mln. manat təşkil edir. Fondun proqnozlarına görə, 2007-ci il üçün xərclər 920,19 mln. manat, düzəlişdən sonra 989,657 mln. manat olacaq. Əhaliyə ödənişlər 869,888 mln. manat, düzəliş 938,117 mln. manat təşkil edir.

**Dövlət Sosial Müdafiəsi Fondu yanvar-may ayları üçün gəlirlərini açıqlayıb**

Azərbaycanın Dövlət Sosial Müdafiə Fondunun yanvar-may ayları ərzində gəlirləri 403,61 mln.manat təşkil edib. Həmçinin icbari sosial sığorta üzrə gəlirlər 244,87 mln. manat təşkil edib. Büdcə təşkilatlarından daxilolmalar 100,15 mln. manat, qeyri-büdcə təşkilatlarından 144,72 mln. manat olub. Yanvar-may aylarında fondun xərcləri 396,79 mln. manat olub. Əhaliyə ödəmələr 382,57 mln. manat, əmək pensiyaları üçün ödəmələr 273,72 mln. manat olub. Digər xərclər 14,22 mln. manat təşkil edib.

# Vergilər

## 2008-ci ildə ABƏŞ-in vergi sistemi dəyişdiriləcək

Azərbaycan maliyyə nazirinin müavini Azər Bayramovun verdiyi məlumata görə, 2008-ci il üçün büdcə proqnozlarının hazırlanması «Azəri-Çıraq-Günəşli» yatağının işlənməsi ilə məşğul olan Aərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin vergi sisteminin xüsusiyyətlərinin müəyyən edilməsindən asılıdır. «Birinci yarımilin nəticələrinə əsasən, nefin qiymətlərindən asılı olaraq vəziyyət aydınlaşır, uyğun olaraq avqustun əvvəlində ABƏŞ-in vergi sistemi ilə əlaqədar dövlətin mövqeyi formalaşdırlıb» - deyə nazir müavini bildirib. Vergi sistieminin dəyişdirilməsi koeffitsient R-faktorun, gəlirli neftin bölüşdürülməsi sisteminin dəyişdirilməsini nəzərdə tutur. «Hazırda neft gəlirləri 30% olmaqla ARNDŞ, 70% olmaqla podratçı şirkətlər arasında bölüşdürülür, bu rəqəmlər 55% və 45% , hətta 80% -20% arasında dəyişə bilər» - deyə Bayramov bildirib. Neftin qiymətlərinin artmasını nəzərə alaraq xarici investisiyaların geri qaytarılması sürətli templərlə baş verir və bunun da nəticəsində əsas vəsaitlər 2008-ci ilin yanvar ayında sıfıra bərabər ola bilər. Belə proqnozlar neftin qiymətinin gözlənilən $80/barr. olması ilə əlaqədardır. Uyğun olaraq gələn ilin birinci kvartalında neft gəlirlərinin bölüşdürülməsi 55% və 45% olmaqla yeni mexanizmin tətbiq edilməsini nəzərdə tutur, ikinci və üçüncü kvartaldan isə neft gəlirlərinin 80%-i ARNDŞ-ə, 20%-i isə ABƏŞ-in tərkibinə daxil olan digər podratçı şirkətlərə veriləcək.

## Nazir: «Azərbaycanın qeyri-neft sektoruna kapitalın cəlb edilməsi üçün yeni fiskal rejim yaratmaq lazımdır»

Azərbaycan Sənaye və Energetika Nazirliyi qeyri-neft sektorunun inkişafına dair Dövlət Proqramı (2007-2012-ci illərdə) hazırlayıb. Bu barədə nazir Natiq Əliyev məlumat verib. «Biz ölkənin qeyri-neft sənayesinin vəziyyətini analiz etdik, bu sahənin gələcək inkişafının əsas istiqamətlərini müəyyənləşdirdik. Aydınlaşdırdıq ki, yerli xammalın mövcudluğundan çıxış edərək müəyyən sahələrin inkişafı üçün Azərbaycana bu gün nə lazımdır» - deyə nazir bildirib. Onun sözlərinə görə, ölkə üçün bu gün qeyri-neft sənayesinin bütün sahələrinin inkişafı əhəmiyyət kəsb edir. «Yeni vergi, gömrük rejimi yaratmaq lazımdır. Yeni qanunlar hazırlamaq gərəkdir ki, onlar insanları və kapitalı qeyri-neft sektoruna cəlb etsin. Bu sektor demək olar ki, bizdə yoxdur. SSRİ vaxtında işləyən iri müəssisələr indi yoxdur» - deyə Əliyev vurğulayıb. Onun sözlərinə görə, qeyri-neft sektorunun inkişafı üçün qanunlar neft yataqlarının işlənilməsi üçün qəbul olunanlarla oxşarlıq təşkil etməlidir. «Biz neft sektoru üçün münbit vergi və gömrük rejimlərini yaratdıq, ona görə də müvəffəqiyyət qazanıldı. Bu gün biz bu sektora artıq 20 mlrd. dollara yaxın vəsait cəlb etmişik» - deyə naziri bildirib. Vergi rejimi çərçivəsində vergi tətilləri, pul qoyuluşlarının azaldılması və güman ki, avadanlıqların gömrük rüsumlarından azad edilməsi planlaşdırılır. «Hər bir layihə ayrıca olaraq müzakirə edilməlidir» - deyə nazir vurğulayıb.

## ABŞ xəzinədarlığı vergi idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı yeni Dövlət Proqramının hazırlanmasında yardım göstərir

Azərbaycan Vergilər Nazirliyi vergi idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı yeni Dövlət Proqramının prioritetlərinin hazırlığına başlayıb. Bu barədə vergilər nazirinin müavini Natiq Əmirov məlumat verib. Onun sözlərinə görə, proqram 2008-2012-ci illəri əhatə edəcək. Əvvəlki proqramın müddəti 2007-ci ilin sonunda bitmək üzrədir. Bu proqramda yer alan bütün vəzifələr demək olar ki, yerinə yetirilib. Yalnz bir sıra texniki məsələlərin həlli qalıb. Bunların arasında elektron vergi terminallarının quraşdırılması var. Artıq bu istiqamətdə işlər aparılır. Terminalların bütün ərazi vergi idarələrində quraşdırılması nəzərdə tutulur. Əmirovun sözlərinə görə, vergi idarəçiliyinin təkmilləşdirilməsinin ikinci mərhələsinin hazırlığında Vergilər Nazirliyinə ABŞ-ın Dövlət Xəzinədarlığı və digər beynəlxalq maliyyə təşkilatları yardım göstərir. Digər ölkələrlə də təcrübə mübadiləsi aparılır.

## Büdcə xərcləmələri

**Azərbacyanın Sahibkarlığa Kömək Milli Fondu güzəştli kreditlərin verilməsi üçün büdcə ayırmasını tamamilə yerləşdirib**

Bu ilin ötən dövrü ərzində Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına müvəkkil kredit təşkilatları vasitəsilə respublikanın 41 şəhər və rayonu üzrə 118 sahibkarlıq subyektinin investisiya layihəsinin maliyyələşdirilməsinə 15 mln. manat həcmində güzəştli kredit verilib. Bu barədə İqtisadi İnkişaf Nazirliyindən məlumat verilib. Milli Fond güzəştli kreditlərin verilməsi üçün ilin əvvəlindən dövlət büdcəsindən ayrılmanı tamamilə mənimsəyib. Maliyyələşdirilən layihələrin 77%-i respublikanın regionlarının payına düşür. Kreditləşdirilən layihələrin 88%-ni isə istehsal və emal yönümlü layihələr təşkil edir. Güzəştli kreditlər əsasən, sənaye məhsulları istehsalı, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, kəndli fermer təsərrüfatlarının, turizm infrastukturunun, xidmət sahələrinin inkişafı layihələrinin maliyyələşdirilməsinə yönəldilib. 2007-ci ilin ötən dövründə verilmiş güzəştli kreditlər hesabına maliyyələşdirilən layihələrin həyata keçirilməsi nəticəsində 1700-dən çox yeni iş yerinin yaradılacağı gözlənilir. 2007-cı ildə bu məqsədlə dövlət büdcəsindən 80 mln. manat vəsaitin ayrılması nəzərdə tutulur. Bu vəsaitin 6 mln. manat həcmində olan hissəsi Naxçıvan Muxtar Respublikasında sahibkarlığın inkişafına yönəldiləcək.

**Milli Bank Azərbaycan İpoteka Fonduna əlavə maliyyə almaq üçün hökumətə müraciət edib**

Azərbaycan Milli Bankı (AMB) İpoteka Fonduna dövlət büdcəsindən əlavə maliyyə almaq üçün rəsmi olaraq hökumətə müraciət edib. Bu barədə AMB-nin idarə heyətinin sədr müavini Rüfət Aslanlı bildirib. Banklar 54 mln. manat verib, dövlət büdcəsində isə son üç ilə bu məqsədlər üçün 46 mln. manat nəzərdə tutulub. "Biz İpoteka fondunun bundan sonrakı maliyyələşdirilməsi üçün hökumətin müsbət cavab verəcəyinə ümid edirik. Bizim hesablamalarımıza gorə, qalan yarım ilə də elə ilin əvvəlindən sərf olunan qədər vəsait tələb olunur. İpoteka kreditlərinin verilmə tempini prezidentin bir müddət öncə Sərhəd xidməti, MTN və Daxili qoşunların hərbi qulluqçularının da daxil olduğu sosial ipoteka alanların siyahısının genişləndirilməsi barədə sərəncamı sürətləndirə bilər",-deyə Aslanlı söyləyib.

**Azərbaycanın ÜTT-yə qəbulu ilə bağlı hazırlıq prosesi üçün dövlət büdcəsindən vəsaitlərin ayrılması razılaşdırılıb**

Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına (ÜTT) qəbulunun hazırlığı çərçivəsində xarici ekspertlərin cəlb edilməsi üçün maliyyə resursları məhduddur. Bu sözləri dövlət komissiyasının iclasında komissiyanın sədri, iqtisadi inkişaf naziri Heydər Babayev deyib. «Milli qanunvericiliyin ÜTT tələblərinə uyğunlaşdırılması üçün yerli kadrlarımız yoxdur. Ona görə də xarici məsləhətçilərin cəlb edilməsinə ehtiyac var. Azərbaycan prezidenti müvafiq məqsədlər üçün dövlət büdcəsindən vəsaitlərin ayrılmasını dəstəkləyir» - deyə nazir vurğulayıb. Onun fikrincə, bu vəsaitlər Nazirlər Kabinetinin ehtiyat fondundan, yaxud da prezidentin ehtiyat fondundan ayrıla bilər. Tədbirlərin maliyyələşdirilməsi məsələləri iyunun 6-da ÜTT-yə qəbulun hazırlığı çərçivəsində dövlət komissiyasının iclasında müzakirə olunub. Bu gün ölkə müvafiq istiqamətdə Almaniya hökumətindən və USAİD-dən texniki yardım alır. Eyni zamanda, İsveçrənin iqtisadi əməkdaşlıq üzrə dövlət katibliyindən də (SECO) yardım gözlənilir.

**BVF dövlət xərclərinin genişlənməsində neft amilinin təsirinin artdığını qeyd edir**

Beynəlxalq Valyuta Fondu (BVF) 2007-ci ildə dövlət büdcəsi xərclərinin 47 faiz artımını planlaşdırır. Bu barədə "BVF-in yaradılması haqqında" razılaşmanın VI maddəsinə uyğun olaraq BVF-in icmalların yekunlarına dair hesabatında göstərilib. Bu əmək haqlarının 59 faiz artması və investisiya kapitalı üzrə 40 faizlik artım xərcləri hesabına baş verəcək. Bu il ümumilikdə dövlət gəlirləri 54,9 faiz artacaq ki, bunun da 28,2 faizini neft sektorundan gələn gəlirlər təşkil edir. BVF ekspertlərinin fikrincə,

Azərbaycanın neft sektorunun fəal inkişafı 2006-cı ildə dövlət xərclərinin 80 faizə qədər artmasına gətirib çıxardı. Xəzinənin mübadilə məzənnəsinin zəif inkişafı məzmununda genişlənməsi nəticəsində inflyasiya 2005-ci ilin dekabr ayında 5,5 faizdən 2007-ci ilin mart ayında 16,4 faizə qədər artıb.

# Maliyyə Nazirliyi

## Maliyyə Nazirliyi kapitallaşma tələblərinə cavab verməyən sığorta şirkətlərinin sayını açıqlayıb

Maliyyə Nazirliyinin qiymətləndirməsinə əsasən, hazırda Azərbaycanda 5-6 şirkətin kapitallaşma ilə bağlı problemi var. Bunu nazirliyin Dövlət sığorta nəzarəti şöbəsinin rəhbəri Namiq Xəlilov bildirib. "Bizim məqsədimiz şirkətləri bağlamaq deyil, belə ki, sığortaçıların da maraqları var. Biz bu şirkətlərin nizamnamə kapitallarını artırmasına nail olmaq üçün danışıqlar aparırıq. Yekun nəticədə isə əgər bu şirkətlər kapitallarını tələb olunan səviyyəyə çatdırmasalar, onların gələcəyi yoxdur" - deyə Xəlilov hesab edir. Onun sözlərinə görə, kapitallaşma məsələsi Maliyyə Nazirliyinin diqqət mərkəzindədir və "Sığorta haqqında" qanunun qəbul olunması ilə 2010-cu il yanvarın 1-nə qədər faliyyətdə olan sığorta şirkətləri ilə yanaşı yeni yaradılan şirkətlərin də nizamnamə kapitalının ən azı 3 mln. manata çatdırılması üçün artım qrafikinə baxılacaq. Hazırda isə onlar 2007-ci il yanvarın 1-nə olan qrafikə (nizamnamə kapitalı 700 min manat) əsaslanır. 2008-ci ilin əvvəlinə isə sığorta şirkətlərinin nizamnamə kapitalının həcmi 1 mln. manat olmalıdır. Hazırda Maliyyə Nazirliyi tələblər üçün aralıq müddətlərin – yarım illik, yaxud illik müddətlərin müəyyən olunması üzərində işləyir.

## Azərbaycan Maliyyə Nazirliyi ölkənin sığorta şirkətlərində xarici kapitalın iştirakını liberallaşdırır

Azərbaycan Maliyyə Nazirliyi Azərbaycan Respublikası ərazisində öz ölkə qanunvericiliyinə müvafiq fəaliyyət göstərəcək xarici sığorta şirkətlərinin açılmasının əleyhinədir. Bu barədə bazar ertəsi nazirliyin Sığorta nəzarəti şöbəsinin rəhbəri Namiq Xəlilov məlumat verib. «Bu gün biz bununla razı deyilik və ölkənin sığorta bazarının tam liberallaşması üçün keçid dövrünün müəyyənləşdirilməsi məsələsi hələ müzakirə olunacaq» - deyə Xəlilov bildirib. Lakin onun sözlərinə görə, bir şirkətdə xarici kapitalın iştirak payı məhdudlaşdırılmayacaq, lakin ölkədə fəaliyyət göstərən bütün sığorta şirkətlərinin ümumi kapital həcmində xarici kapitala məhdudiyyət qəbul olunacaq. Onun fikrincə, bu, daha liberal addımdır, lakin limitin konkret həcmi hələ müəyyən olunmayıb və mövcud payın dəqiqləşdirilməsi ilə mümkün olacaq. «Bu gün bu cür normativlərin olmaması səbəbindən statistika aparılmır və bu, bazarın açılması istiqamətində addım olacaq. Belə ki, bir çox iri sığortaçılar majoritar səhmdar kimi Azərbaycan bazarına daxil olmağı arzu edir» - deyə Xəlilov hesab edir. Onun sözlərinə görə, xarici iştirak həddini mövcud olduğunudan daha yüksək təyin etmək planlaşdırılır. «Bu, ÜTT tələb etdiyi üçün olmayacaq, biz başa düşürük ki, Azərbaycan əhalisi üçün inkişaf etmiş ölkələrdə mövcud olan sığorta növlərinə çıxış açmalıyıq» - deyə Xəlilov bildirib. Yeni redaksiyada «Sığorta haqqında» qanunda bir şirkətdə xarici sığorta kapitalının mümkün iştirakını 49 faiz nəzərdə tutan bənd çıxarılıb. Bu aparıcı sığorta şirkətlərinin ölkəyə gəlməsinin qarşısını alan əsas faktordur. Nümayəndəliyin açılışına gəldikdə, Xəlilovun fikrincə, bu, əsas şirkəti üçün biznes axtarışı vacib olan təkrar sığorta şirkətləri üçün daha maraqlıdır. Bu gün respublikada 29 sığorta şirkəti fəaliyyət göstərir, onların doqquzunda xarici kapital iştirak edir.

## Azərbaycanın Maliyyə Nazirliyi avroistiqrazların buraxılması üçün menecerin seçilməsi üzrə tenderin nəticələrini açıqlayıb

Azərbaycanın Maliyyə Nazirliyində bazar ertəsi avroistiqrazların buraxılması üçün menecer və hüquqi xidmətlərin göstərilməsi üzrə tenderin nəticələri açıqlanıb. Tender komissiyasının müavini, maliyyə nazirinin müavini Azər Bayramov bildirib ki, avroistiqrazların buraxılmasında menecer yerinə 11, hüquqi xidmətlərin göstərilməsinə isə 4 namizədlik irəli sürülüb. Onun sözlərinə görə, qiymətləndirmə birinci mövqe üçün 11, ikinci mövqe üçün isə 7 meyar üzrə aparılacaq. Birinci mövqe üçün 11 namziəd sırasına UBS, Commerz–bank, UniCredit, Lehman Bank, Deutsche Bank, ABN Amro, Morgan Stanley, JP Morgan təkliflərini verib. İnkinci mövqe üçün isə – Baker.UBS avrobondların yerləşdirlməsini 5 il müddətinə emissiya dəyərinin 0,125 faizi, 7 il üçün 0,275 faiz, 10 il üçün isə 0,3 faizlə təklif edir. Commerz–bank 5 ilə 0,125 faizlə ödəmə, 7 ilə 0,155 faiz, 10 il üçün isə

0,175 faizlə təklif edir. UniCredit 5 ilə 0,075 faizlə ödəmə, 10 il üçün isə 0,2 faizlə təklif edir. Lehman. Is Investment ko-menecer kimi çıxış etmək istəyir. Nazir müavininin sölərinə görə, bu şirkətin təklifləri tenderin şərtlərinə uyğun deyil, amma ayrıca baxıla bilər. Credit Swiss 5-7, yaxud 10 il müddətinə avroistiqrazların yerləşdirilməsini 0,1 faizlə, amma daha uğurlu fəaliyyət olacağı təqdirdə əlavə 0,05 faiz şərti ilə təklif edir. Drezdner Bank 5-7-10 il müddətinə 0,1 faiz ödəmə təklif edir. Deutsche Bank beş və 10 il müddətə 0,05 faiz ödəmə təklif edir. ABN Amro avroistiqrazların yerləşdirilməsində 5 il müddətinə emissiaya dəyərinin 0,2 faizi, 7 ilə 0,225 faiz, 10 il üçün isə 0,25 faiz təklif edir. Morgan Stanley avroistiqrazların yerləşdirilməsində 5 il müddətinə emissiaya dəyərinin 0,15 faizi, 7 ilə 0,175 faiz, 10 il üçün isə 0,2 faiz təklif edir. JP Morgan avroistiqrazların yerləşdirilməsində 5 il müddətinə emissiya dəyərinin 0,095 faiz, 10 il üçün isə 0,145 faiz ödəmə təklif edir. Hüquqi xidmətlərin göstrərilməsinə dair namizədlərin şərtləri: Baker. Arnold. Fresh Fields Bruckhaus xidmətləri maksimum həddə 295 min dollara həyata keçirməyi təklif edir. Yerli partnyora ödəməni nəzərə almaqla isə 345 min dollar. LeBoeuF, lamb, greene - Komissiyadan təkliflərin qiymətləndirliməsi üçün bir ay tələb olunduğu bildirilib. Tenderin qalibinin iyunun sonuna, ilk avroistiqrazın buraxılışı isə 2007-ci ilin payızına gözlənilir. 2007-ci il Dövlət Büdcəsinin icrası haqqında prezident sərəncamında avroistiqrazların buraxılış üçün 249 mln. manat nəzərdə tutulub.

**Maliyyə nazirliyinin avrobond üzrə tarifləri Azərbaycanın korporativ avro istiqrazları üçün baza olacaq**

Bazar ertəsi ölkənin Maliyə Naziriliyinin Sığorta Nəzarəti Şöbəsinin rəhbəri Namiq Xəlilovun verdiyi məlumata görə, Azərbaycan hökumətinin avrobondların yerləşdirilməsi planı Azərbaycanın qiymətli kağızlarının gələcəkdə xarici bazarlara çıxarılması məqsədilə bağlıdır. Onun sözlərinə görə, Maliyyə Naziliyinin tətbiq etməyə hazırlaşdığı avrobond tarifləri Azərbaycanın korporativ avro istiqrazları üçün baza olacaq. O, bu istiqrazların hansı tariflər altında yerləşdiriləcəyi haqda məlumət verməkdə çətinlik çəkib, belə ki, onlar bazardan asılı olaraq müəyyən olunacaq. Avrobonların yerləşdirilməsinin ilkin müddəti 5 il, həcmi isə 300 mln. dollar təşkil edəcək. Avrobondları 2007-ci ildə yerləşdirmək planı olan Azərbaycan Beynəlxalq Bankının avrobondları dövlətin istiqrazlarının emissiyasından sonra tətbiq edilə bilər. «Cəlb olunan vəsaitlər konkret layihə ilə bağlanmayıb. Onlar büdcə kəsirinin aradan qaldırılması üçün nəzərdə tutulub və lazım olarsa, dövlət büdcəsindən xərclərin ödənilməsi üçün istifadə olunacaq», -deyə o bildirib.

# Büdcəyə nəzarət və şəffaflıq

## BMT-nin Dövlət Qulluğu mükafatı Neft Fonduna təqdim olundu

İyunun 26-29-da BMT-nin Vyanadakı qərargahında "Hökumətə inamın bərpası" mövzusunda 7-ci Qlobal Forum keçirilib. Forum çərçivəsində iyunun 26-da 2007-ci il üçün BMT-nin Dövlət Qulluğu mükafatlarının təqdimetmə mərasimi olub. Mükafatı alanlar sırasında Azərbaycan Respublikasının Dövlət Neft Fondu da var. "Dövlət xidmətində şəffaflığın, cavabdehliyin və məsuliyyətin artırılması" üzrə mükafatı Dövlət Neft Fondunun icraçi direktoru Şahmar Mövsumova BMT baş katibinin müavini Asa-Roze Migiro təqdim edib.

## Büdcə qanunvericiliyi

### Milli Məclis Azərbaycanın filiz yataqlarının işlənməsinə dair sazişi təsdiq edəcək

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya məsələləri daimi komissiyasının cümə günü keçirilən iclasında "Azərbaycan Respublikasında Qaradağ, Çovdar, Göydağ, Dağkəsəmən filiz sahələrinin, Köhnəmədən sahəsinin və Kürəkçay hövzəsi yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan hökuməti ilə "Londeks Resorsiz S.A.", "Uill ənd Meyris S.A.", "Farqeyt Mayninq Korporeyşn", "Qlobeks İnternəşnl LLP" və "Mitsui Mineral Development Enceninrinq Ko.Ltd" arasında imzalanan sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə" qanun layihəsi müzakirə olunub. Milli Məclisin sədr müavini, adıçəkilən komissiyanın sədri Valeh Ələsgərov bildirib ki, bu saziş 30 il qüvvədə olacaq. Hər mədən yatağı üçün proqramda nəzərdə tutulan işlər 48 ay müddətində yerinə yetirilməlidir. Əlavə kəşfiyyat işlərinə ehtiyac olarsa, hər mədən yatağı üçün 16 ay əlavə müddət təyin oluna bilər. Podratçı tərəflərin bu saziş üzrə sərmayə öhdəlikləri belə təsdiq edilir: Londeks 45 faiz, Uill ənd Meyris 29 faiz, Farqeyt 15 faiz, Qlobeks 11 faiz. Sazişin qüvvəyə mindiyi tarixdən etibarən işçi qüvvəsinin tərkibi mütəxəssislər üzrə azı 45 faiz, qeyri-mütəxəssislər üzrə azı 80 faiz Azərbaycan vətəndaşlarından ibarət olacaq, bu faizlər növbəti mərhələlərdə daha da artırılacaq. Sonra Azərbaycan və Moldova hökumətləri arasında geodeziya, kartoqrafiya, kadastr, yerquruluşu, geoinformasiya sistemləri və Yerin məsafədən tədqiq edilməsi sahəsində əməkdaşlığa dair sazişin təsdiqi məsələsi müzakirə olunub. Komissiya sədri bildirib ki, beş il müddətinə bağlanan bu saziş tərəflərin sosial və iqtisadi inkişafı üçün şərait yaradacaq. Sənədə görə, əməkdaşlıq birgə proqram və layihələrin hazırlanıb həyata keçirilməsi, geodeziya, kartoqrafiya, kadastr, yerquruluşu, geoinformasiya sistemləri və Yerin məsafədən zondlanması sahəsində məsafədən təlimin təşkil edilməsi, müvafiq qanunvericilik və hüquqi aktların, habelə məlumatların mübadiləsi və s. formalarda həyata keçiriləcək. Sonda hər iki sazişin Milli Məclis tərəfindən ratifikasiyası məqsədəuyğun sayılıb və qanun layihələrinin parlamentə təqdim olunması qərara alınıb. Hər iki saziş parlamentin iyunun beşində keçiriləcək iclasında müzakirə ediləcək.

### Parlament komissiyasının sədri: Azərbaycan hökuməti AzSSR dövründə Əmanət Bankına qoyulmuş vəsaitlərin indeksasiyası üçün intensiv işlər görür

Azərbaycan vətəndaşlarının AzSSR Əmanət Bankına qoyduqları vəsaitlərin indeksasiyası məsələsi hökumətin diqqət mərkəzindədir və bu istiqamətdə intensiv işlər aparılır. Bunu cümə axşamı jurnalistlərə Milli Məclisin İqtisadi siyasət daimi komissiyasının sədri Ziyad Səmədzadə bildirib. Millət vəkili bildirib ki, bu məqsədlə dövlət komissiyası yaradılıb, Kapital Bank və Maliyyə Nazirliyi ilə birgə iş aparılır. Dövlət komissiyasına baş nazir Artur Rasizadə başçılıq edir. Maliyyə Nazirliyinin ilkin hesablamalarına görə, indeksasiya 8 il ərzində aparılacaq və bu məqsəd üçün 600 mln. dollara qədər vəsait yönəldiləcək. Xatırladaq ki, Kapital Bank tərəfindən aparılmış invertarizasiya zamanı 1 mln. 986 min əmanətçi müəyyən olunub. Onların əmanətlərinin ümumi məbləği 4,8 mlrd. sovet rublu təşkil edir. Maliyyə Nazirliyinin indeksasiya aparılması üçün \$0,3-0,4 mlrd., \$0,5-0,55 mlrd. və \$0,8-1 mlrd. tələb edən üç variantı var. "Hazırda əmanətlərin hansı hissəsinin qaytarılacağı müzakirə olunur. Digər tərəfdən xeyli sayda saxta əmanət kitabçaları aşkara çıxarılıb. Onların aşkarlanması və dəqiqləşdirilməsi üçün arxiv öyrənilir. Materiallar hazırlanaraq hökumətə təqdim olunacaq",-deyə Səmədzadə söyləyib. Deputat hesab edir ki, əmanətlərin qaytarılması mexanizmi ölkədə maliyyə stabilliyini təmin etməli və eyni zamanda əmanətçilərin hüquqlarını nərpa etməlidir. MDB ölkələrindən yalnız Qazaxıstan, Qırğızıstan və Belarusda bu proses başa çatdırılıb. Hazırda əmanətlərin indeksasiya prosesi Rusiya, Ukrayna və Moldovada gedir. Bu ölkələrin hər birində indeksasiya müxtəlif cür aparılır. Belə ki, Rusiyada 1 Sovet rublu - \$0,0033, Qazaxıstanada \$0,006 (150 rubl – 1 dollar), Ukraynada - \$0,009, Belarusda \$0,33, Moldovada \$0,20, Qırğızıstanada \$0,024 kimi qəbul olunub.

## Beynəlxalq əlaqələr

### Gürcüstanın Maliyyə Nazirliyi 31 may 2007-ci ilə Azərbaycana olan dövlət borcunu açıqlayıb

Gürcüstanın Maliyyə Nazirliyinin məlumatına əsasən, mayın 31-nə Gürcüstanın Azərbaycana olan dövlət borcu 14,527 mln. dollar təşkil edir. Hazırda Gürücüstanın borcunun ümumi həcmi və dövlət zəmanəti ilə götürülmüş kredit mayın 31-nə 1,7 mlrd. dollardır. Dövlətin bilavasitə xarici borcu isə 1,684 mlrd. dollar məbləğindədir. Gürcüstanın 15 ölkədən aldığı kreditlərə görə borcu 536,176 mln dollardır. Kreditor ölkələr sırasında Avstriya ($2 mln), Azərbaycan ($14,527 mln.), Türkmənistan ($24,427 mln.), Türkiyə ($50,596 mln.), İran ($11,418 mln.), Rusiya ($132,568 mln.), ABŞ ($41,358 mln.), Ermənistan ($17,66 mln.), Özbəkistan ($390 mln), Ukrayna ($356 mln) , Qazaxıstan ($27,774 mln.), Almaniya ($150,258 mln.), Yaponiya ($42,979 mln.), Küveyt ($14,559 mln.), Hollandiya ($5,28 mln.) var. Dövlətlərlə yanaşı, Gürcüstana beynəlxalq institutlar da kredit verib ki, onlara olan borcun da həcmi $1,148 mlrd. təşkil edir.

*Qeyd: İnformasiyaların mənbəyi "Trend" İnformasiya Agentliyi və Dövlət Neft Fondudur.*

Məsul redaktor: Kənan Aslanlı (İctimai Vəsaitin Monitorinqi Mərkəzi)
kenan@pfmc.az
http://www.nbg.az

İctimai Vəsaitin Monitorinqi Mərkəzi
Ünvan: C.Cabbarlı küç., 44, 9[cu] mərtəbə, Bakı AZ1065, Azərbaycan
Telefon/Fax: (+994 12) 497 8967, 596 3774
office@pfmc.az
http://www.pfmc.az